Sürəyya sakit qız idi. Həyətdə oynayan uşaqlara qoşulmaz, evin bir küncünə çəkilib bapbalaca gəlinciyi Cubbulunu yedizdirər, saçlarını darayardı.



Cubbulu ilə söhbəti maraqlı olurdu. Hərdən onu danlayırdı:

– Cubbulu, bu gün özünü pis aparırsan. Dərslərini hazırlamamısan. Tənbəllik edirsən ha! Evi də zibilləmisən. Təmizkar qız deyilsən.

Sonra səsini bir az nazildib Cubbulunun da əvəzinə danışırdı:



– Bağışla, Sürəyya. Bir də belə eləmərəm.

– Onda get əllərini yu, gəl otur yeməyini ye.

– Mən hələ ac deyiləm. Yemək istəmirəm.

– Sən həmişə belə edirsən. Vaxtlı-vaxtında yeməsən, böyüməzsən. Olarsan cubbulu qız. Bütün uşaqlar məktəbə gedər, sən evdə oturarsan.



Sürəyya çox vaxt evcik qururdu. Cubbulunu da evciyin ortasında oturdurdu. Hərdən başı elə qarışırdı ki, cəbhədə döyüşən atası belə yadından çıxırdı. Birdən nəyi isə xatırlayır, kədərlənir və deyirdi:

– Cubbulu, atam müharibədən qayıdanda mənə də, sənə də güllü paltar alacaq. Özü deyib.

Bütün günü Sürəyyanın yanında sevimli, xırda gəlinciyi Cubbuludan savayı bir də ağ göyərçin olurdu. Sürəyya onu Ağca çağırırdı. Ağca Sürəyyanın ən sevimli dostlarından idi. O, eyvana sarmaşmış tənəyə qonur, saatlarla Sürəyya ilə Cubbuluya tamaşa edirdi. Hamıya elə gəlirdi ki, o Sürəyyanın nə danışdığını da başa düşür.

Bəzən görürdün ki, Ağca uçub qızın evciyinin kənarına qonub. Sürəyya onu suya, dənə qonaq edir, Ağca əvvəlcə çəkinir, sonra həvəslə yeyirdi. Bəzən oyuna da qoşulur, dimdiyi ilə nəlbəkidəki sudan götürüb damcı-damcı tökür, Sürəyya isə Cubbulunu çimizdirirdi.



Hərdənbir atılan güllə səsindən Ağca da, Sürəyya da səksənirdi. Cubbulu isə heç nəyi vecinə almırdı. Belə olanda, onlar tələsik evciklərini yığışdırıb zirzəmiyə düşürdülər. Axı Sürəyyagilin kəndləri erməni kəndlərinin əhatəsində idi.

Günlər bir-birini əvəz edirdi. Cəbhədən ağır xəbərlər gəlirdi. Sürəyya çoxdandı ki, atasından məktub almırdı. Bir gün səhər tezdən atışma başlandı. Düşmən Sürəyyagilin kəndinə hücuma keçmişdi. Gülləni dolu kimi yağdırırdı.



**Silahsız camaat kəndi tərk edirdi. Sürəyyanın anası da qızını götürüb güc-bəla ilə bu güllə yağışından salamat çıxdı. Onlar başqa kənddə yaşayan xalasıgilə gəldilər.**

**Bütün gecəni heç kəs yatmadı. Hamının gördüyü dəhşətdən yuxusu qaçmışdı. Sürəyya da yata bilmirdi. Axı necə yataydı?! O, Ağca ilə Cubbulunu düşmənlərin əlində qoyub gəlmişdi.**



Bunu heç zaman özünə bağışlamayacaqdı. Elə hey ağlayırdı. Xalasının verdiyi gəlinciyə yaxın durmur, “Cubbulu”, – deyib gözünün yaşını axıdırdı.

Sürəyyagilin kəndini düşmən dağıtmışdı. Uçmuş evin eyvanındakı tənəyə qonmuş Ağca çox kədərli idi. O, toz-torpağın içinə düşmüş Cubbulu ilə dərdləşirdi:

– Tək qalmısan, Cubbulu?

– Hə Ağca, qolum da əzilib. Daşların altında qalıb. Özüm də çox darıxıram. Sən də darıxırsan?

– Əlbəttə. Lap ürəyim partlayır. Görəsən, Sürəyya qayıdıb bura gələr?



– Yox, Ağca, yox. Kənd düşmənlərlə doludur axı...

– Bəs onda neyləyək?

– Hələ bir soruşursan?! Sənin ki, qanadların var! Mən uça bilsəydim, bir dəqiqə də burada qalmazdım. Gəl məni də al dimdiyinə, gedək Sürəyyanın yanına.



Ağca elə bil yuxudan ayıldı. Diksinən kimi oldu. Uçub Cubbulunun yanına qondu. Güc-bəla ilə çəkib toz-torpağın içindən onu çıxartdı. Dimdiyinə alıb qanadlandı. Yolu yaxşı tanıyırdı. Sürəyya onu bir dəfə özü ilə xalasıgilə aparmışdı.

Yandırılmış kəndlərin üstü ilə uçurdular. Hər tərəfdən burula-burula tüstü qalxırdı. Ağca boğulurdu. Amma var gücünü toplayıb yoluna davam edirdi. Gecikmək olmazdı. Bir azdan hava qaralacaqdı. Həm də Cubbulu çox ağır idi. Ağca dimdiklərinin yorulduğunu hiss edirdi. Onları bərk-bərk bir-birinə sıxırdı ki, Cubbulu yerə düşməsin, axı o, yaralı idi. Ağca yorulduğunu dostuna bildirmirdi, özünü şən göstərməyə çalışırdı. Kəndə çatmağa lap az qalmışdı.

Sürəyya çox kədərli idi. Dodaqlarını büzüb pəncərədən bayıra baxırdı. Səhərdən heç nə yeməmişdi. Gözü yol çəkirdi.

Birdən ayağa qalxdı. Gözlərini ovxaladı. Gördüyünün yuxu, yoxsa həqiqət olduğunu anlamaq istədi. Yox, yuxu deyildi. Doğrudan da Ağca idi, dimdiyindəki isə Cubbulu.





Sürəyya sevincindən atılıb-düşdü. Dostlarını qucaqladı. İndi onlar yenə də üçü bir yerdə idilər. Üç dost öz sevimli kəndlərinə qayıdacaqları günü və Sürəyyanın əsgər atasının yolunu gözləyirdilər.